UOT:821.512.1611

**Nərgiz Əliyeva,**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

# TÜRKOLOGİYANIN ALLAHI: FRİDRİX VİLHELM RADLOV

**Açar sözlər:** *Vilhelm Radlov, türkologiya elmi, folklor və etnoqrafiya materialları.*
**Ключевые слова**: *Вильгельм Радлов, тюркологическая наука, материалы по фольклору и этнографии.*
**Key words**: *Wilhelm Radlov, Turkology, folklore, ethnography.*

*1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayına həsr edilmişdi…*

XX əsr nəhəng kəşfləri, elmi-texniki tərəqqinin inkişafı baxımından əvvəlki yüzilliklərdən keyfiyyətcə fərqlənir. Bu dövr həm də türkologiya, şərqşünaslıq, regionşünaslıq, folklor, mifologiya, tarix, ədəbiyyat, dilçilik sahəsindəki fundamental araşdırmaları ilə yaddaşlarda qalmışdır. Bu araşdırmaların əhatəsi təkcə ölçüyə gəlməz coğrafi sərhədlərinə görə deyil, həm də elmi dərinliyinə görə seçilirdi. XIX əsr Avropasında Türk xalqlarının folklor və etnoqrafiyasının öyrənilməsində iki böyük türkoloji məktəbin – Krakov türkoloji mərkəzinin və Macarıstan dilçilik məktəbinin nümayəndələrinin bu sahədəki misilsiz işləri bütün Avropanın diqqətini cəlb etmişdi. Maarifçilik dövrü kimi xarakterizə olunan bu dövrdə Azərbaycanın Avropaya, Qərbə çıxışı üçün müəyyən imkanlar yarandı. Avropa alim və səyyahlarının qədim türklərin minilliklər boyu məskunlaşdığı ərazələrdə, o cümlədən Azərbaycanda olmaları, folklor, tarix, dilçilik və etnoqrafiya sahəsində gördükləri işləri hər cür tqdirə layiq idi.

Polyak şərqşünası A.Xodzko Azərbaycan qəhrəmanlıq eposu "Koroğlu"nu toplayıb nəşr etdirməklə bütün Avropanı heyrətə saldı. Macar alimlərinin ondan az əhəmiyyətli olmayan türkologiya sahəsindəki kəşfləri bütün Qərb dünyasını hərəkətə gətirdi.Humanitar sahədəki bu kəşflərin önündə Macar dilçilik məktəbinin dünya şöhrətli alimləri Armin Vamberi (1832-1913), Jozef Budeniz, akad. Daniel Szilaği, Antal Regulu, Pal Xunlafluy, Bernard Minkacsi, Sandor Köröce Cşoma, Jozef Papay, İqnac Kunoş, Dül Messaroş Balkanlarda, Türkiyə və Misirdə, Sibir, Altay, Tibet, Çində (uyğurlarda), Orta Asiya və Qazaxıstanda, Türkmənistan və Özbəkistanda, Əfqanistan və İranda, Volqaboyunda böyük çətinliklərlə dil və folklor materialları toplayır, onları diqqətlə öyrənir və Avropada nəşr etdirirdilər. Bu vaxt onlar həm də tarixin ən dərin qatlarında yatmış türk soykökünü, türk xalqları ilə uzaq keçmişlərdə qalmış genetik qohumluğunu axtarırdılar.

Başqa bir Avropalı alim V.Radlov özünün möhtəşəm missiyasını-Türk xalqlarının folklor və etnoqrafiyasının, eposunun, xalq şeiri nümunəkərinin, dialekt və şivələrinin toplanıb nəşr edilməsi və öyrənilməsi sahəsindəki əzəmətli və əvəzolunmaz missiyasını yerinə yetirirdi. Az bir müddət ərzində Avropa alimlərinin tanınmış nümayəndələrinin yekdil rəyi ilə o, türkologiyanın Allahı ünvanına layiq görüldü.

Bu böyük insanın xidmətlərinə layiqincə qiymət verənlərdən biri də Azərbaycan xalqının ziyalıları oldu. Ölümündən cəmisi səkkiz il sonra türk dünyasının təfəkkür mərkəzi olan Bakıda onun şərəfinə ilk Türkoloji Qurultay keçirildi.

Kim idi V.Radlov? Bu insanın xidmətlərini, genişmiqyaslı işini lazımı səviyyədə öyrənib təbliğ edə bilmişikmi?

Məhz bu məqsədlə onun haqqında yığcam məlumat verməklə oxucularımızı onunla bir daha tanış edirik.

Fridrix Vilhelm Radoff 5 yanvar 1837-ci ildə Prussiya krallığının Brandenburq əyalətinin Berlin şəhərində, şəhər polis komissarının ailəsində anadan olmuş, ailənin yeganə övladı olmuşdur. Gimnaziyanı qurtardıqdan sonra 1854-cü ildə Berlin Universitetinin fəlsəfə fakultəsinə daxil olmuş, əvvəlcə teologiya ilə, sonra tarixi-müqayisəli dilçiliklə maraqlanmış, F.Boppun mühazirələrini dinləmişdir. İki semestr Qall universitetində A.F. Pottun mühazirələrini dinləmiş, şərqşünaslıqla maraqlanmış Ritterin tələbəsi olmuş, X.Şteyntal və V.Şottun dərslərini dinləmişdir. Bu vaxtdan onda Ural, Altay dillərinə maraq oyanmış, ora getmək üçün rus dilini öyrənməyə başlamışdır.

20 may 1858-ci ildə Radlov Yen Universitetində «Dinin Asiya Xalqlarına təsiri» mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə doktoru dərəcəsi alıb. Peterburqda o diplomat P.K.Meyendrofla görüşür, sonuncu ona Barnaul Dağ məktəbində alman və latın dilləri üzrə müəllimlik etməyi tövsiyyə edir. O, 11 may 1859-cu ildə Rusiyaya sədaqət andı içərək hələ Almaniyada ikən nişanlandığı Paulina Avqustina Fromm adlı qızı da özü ilə oraya aparır. Bu vaxtdan etibarən o adını dəyişib Vasili Vasilyeviç Radlov adlanmağa başlayır.

1860-1861-ci illərdə Radlov Altayda türk dilini öyrənməyə başlayır, xeyli dil və folklor materialı toplayır. Bu illərdə onun 5 övladı dünyaya gəlir. Beş il müddətində o, Altay və orta Asiyada zəngin material yığıb Peterburqa qayıdır, ezamiyyəsinin vaxtının uzadılması üçün icazə alır. Bundan sonra o altayların teleut və şorların, tuvinlərin, qazax və qırğızların, abakan tatarları və xakasların folklor və dil materiallarını toplayır. 1866-cı ildən onun on cildlik «Türk tayfalarının xalq ədəbiyyatı nümunələri» adlı məşhur əsərinin I cildi nəşr olunur. Daha sonra 1868-ci ilə onun II, 1870-ci ildə III cildi nəşr olunur. 1896-cı ilədək həmin çoxcildliyin daha 4 cildi nəşr olunur. Bu nəşrlər o dövr üçün misli görünməmiş elmi-ədəbi yenilik idi.

1870-ci ildə o, qazaxların «Aqbala» folklor nümünəsini toplayıb nəşr etdirir. Bunlarla kifayətlənməyən Radlov 1863-1869-cu illərdə altay, Barabin-Qırğız çöllərində, Orta Asiyanın müxtəlif ərazilərində 150-dən çox kurqanda arxeoloji qazıntı aparmış, Altay və Qərbi Sibir türklərinin folklor, etnoqrafiyası, müqayisəli dilçiliyi üzrə qiymətli materiallar toplayıb, universal türkoloq və arxeoloq kimi elmi nüfus sahibi olmuşdur.

1871- ci ildə Peterburqa qayıdarkən Kazanda dayanan Radlov gözlənimədən Rusiyanın təhsil naziri D.A. Tolstoydan həmin dairənin təhsili üzrə inspektor vəzifəsinə təklif alır. Aradakı kiçik fasilədən istifadə edərək Berlinə, valideynləri ilə görüşmək üçün gedir.1872- ci ildən Kazan təhsil dairəsində xidməti işinə başlayan Radlov 1884-cü ilədək bu vəzifədə işləyir.

Bu ildə Kazan universitetinin professoru N.İ.İlminski İmperator Akademiya-sında onun üçün nəzərdə tutulmuş akademik yerinə Radlovun namizədliyini irəli sürür. 7 noyabr 1884 -cü ildə imperator Akademiyasının akademiki seçilir.Tezliklə o, Asiya muzeyininin direktoru vəzifəsinə təyinat alır.1890 cı ilədək həmin vəzifədə işləyir.

1886 -cı ildəRadlov Krıma gedir,1887 ci ildə Litva və Volına gedib karaimlərin dilini tədqiq edir.Məhz Radlovun təşəbbüsü və rəhbərliyi altində Monqolustana ekspedisiya təşkil olunur.Onun və Danimarka alimi Tomsonun iştirakı ilə Orxon

yazılarının, tonyukuk abidəsinin şirfləri- yazıları oxunur,1893 -cü ildə bu barədə elmi ictimaiyyətə məlumat verilir.Bir ildən sonra o daha 40 orxon abidəsinin tərcüməsini nəşr etdirir.

1898- ci ildə Radlov D.A. Klemen-Sevin rəhbərliyi altında uyğur ekspedisiyasını təşkil edərək qədim uyğur abidələrinin yazısını oxuyur, bu barədə xeyli elmi material nəşr etdirir.

1894-cü ildə akademik L.İ. Şrenk vəfat edir.İmperiya Akademiyasının Prezidenti Böyük Knyaz Konstantin Kostantinoviçin rəhbərliyi ilə keçirilən iclasda V.Radlov Arxeologiya və Etnoqrafiya Müzeyinin direktoru seçilir.O ətrafına B.F.Adler, L.Y.Şternberq, S.M. Şirokoqorov kimi dünya şöhrətli mütəxəssisləri toplayır. Sank-Peterburqun 200-illik yubleyi ilə bağlı Muzeyə I Böyük Pyotrun adı verilir. Radlovun xahişi ilə çar II Nikolay muzeyə gəlib onun zəngin eksponatları ilə tanış olur.Radlov Muzeyin nəşr orqanını təsis edir. Ölümünə qədər Radlov Muzeyin inkişafına xüsusi diqqət yetirmiş, mənalı ömrünü bu işə həsr etmişdi.

12 may 1918- ci ildə böyük alim vəfat etmişdir. O, Smolensk qəbirsanlığının lüterant hissəsində dəfn etmişdir.Etnoqraf Şirokoqorov onun haqqındakı nekroloqda yazırdı: " Rusiya elmi özünün ən parlaq nümayəndəsini itirdi".

20 may 1918 ci ildə akademiya özünün fövqəladə iclasında qərar qəbul etmişdi ki, hər il yanvarın 5-də Muzeyin illik hesabatı keçirilsin. Lakin bu və ya digər qərarlar yerinə yetirilməmiş qaldı. Çox çəkmədi ki, yeni qurulan sovetlər hakimiyyəti V.Radlovu "burjua ziyalısı" kimi qiymətləndirdi. Bununla da onun möhtəşəm xidmətinin üzərinə qara pərdə çəkildi ... Bütün bunlara baxmayaraq 1926-cı ildə keçirilən I Türkoloji qurultay ona və İ.Qaspiraliya həsr edildi.Qurultayda qaldırılan məsələlər nəinki Azərbaycan elmində, ümumiyyətlə dünya humanitar düşüncə tarixində misli görünməmiş bir hadisə olmaqla türkologiya sahəsində əldə edilmiş uğurlara yekun vuraraq onun inkişafı üçün yeni bir eranın təməlini qoydu. Lakin... Sonrakı illərdə isə onun iştirakçılarını amansız repressiya, kütləvi qırğınlar, təqiblər gözləyirdi.

Bütün təqiblərə, təzyiqlərə, repressiyalara baxmayaraq Bakı türkoğlu təffəkür mərkəzi kimi xatirələrə , yaddaşlarla həkk olundu. Bu gün bu şəhər öz tarixi missiyasını çox ləyaqətlə yerinə yetirir.

## Ədəbiyyat:

1.Библиографический словарь отечественных тюркологов. - М.,1974.
2.Демин М.А. Первооткрыватели древностей / предисл. А.Усманского. - Барнаул, 1989.
3.Кононов А.Н. История изучения тюркских языков в России. - М.:Наука, 1972.
4.Решетов А.М. Академик Радлов - востоковед и музеевед. - СПб., 2002.
5.Тюркологический сборник. - М.,1972.

**Наргиз Алиева**

## БОГ ТЮРКОЛОГИИ: ФРИДРИХ ВИЛЬГЕЛЬМ РАДЛОВ

**Резюме**

Статья посвящена изучению роли В.В.Радлова в аспекте изыскания им фольклорных и этнографических материалов, связанных с жизнью тюркских народов Сибири, Средней Азии, Монголии и Казахстана. Показана роль В.В.Радлова в развитии тюркологической науки в России.

**Nergiz Aliyeva**

## THE GOD OF TURKOLOGY: FRİEDRICH WİLHELM RADLOFF

**Summary**

The paper is dedicated to study and research of academician V.V.Radlov's role in search and discovery of folkloric and ethnographic materials connected with life of the Turkic peoples from Siberia, Central Asia, Mongolia and Kazakhstan. The role of V.V.Radlov in development of Turkology in Russia is shown here.